# Bu vuruşdan dönən deyil ordum mənim



Bəs deyilmi zaman-zaman
Dərd selində batar olduq.
Relslər üstə donub qalmış
Hərəkətsiz qatar olduq.
Axır gəlib bıçaqların
Boğazlara dirəndiyi,
Son nöqtəyə çatar olduq.
Biganəlik yorğanını
Üstümüzdən
Bir dəfəlik atar olduq.

Yarım gedib, yarım qalıb,
Əsəblərim tarım qalıb.
Yol gedirəm tarımlıqda,
Mən nə edim yarımlıqda?
Dəmirdənmi, daşdanmıyam,
Nədənəm mən?
İç dünyamdan yeddi əza
Qoparılmış
Qarabağsız bədənəm mən.
Qoca dünya laqeyd qalıb
Nədən buna?
Necə dözsün Azərbaycan
Böyüklükdə bədən buna?

Ağır fikir tabutunda
Dəfn etmişik yuxuları,
Yatammırıq.
Otuz ildir yol gedirik,
Otuz addım o yandakı,
Qarabağa çatammırıq.
Dərdə bax ki,
Biz Qarabağ xalıların
Qarabağın qurbətində
Toxuyuruq.
Biz "Qarabağ şikəstəsi"n,
Göz yaşları yağmurunda,
Qarabağsız oxuyuruq.

Yaramıza məlhəm olmaz,
Hər yetənin ölkəm haqda
Boş-boşuna mədhnaməsi.
Nə biləydik,
Dörd qəpiyə dəyməz imiş,
İllər boyu
Arxivlərdə mürgü döyən,
Dörd BMT qətnaməsi.

Kirpiklərin nə vecinə,
Altındakı göz nə çəkir.
Körüklənən ocaq hardan
Anlayacaq köz nə çəkir.
Özgə Özlər dərk edərmi,
İçimdəki ÖZ nə çəkir?
Bağsız qalmış bir bağbanam,
Çəkin məni dara bağsız.
Qarabağlı deyərmiyik,
Özümüzə qarabağsız?
Onsuz özüm öz içimə,
Sancılmış bir ox kimiyəm.
Mən nə qədər varam desəm,
Yenə onsuz yox kimiyəm.
Bizdən ayrı nə bədəndir,
Nə təndir o.
Əsl doğma vətəndaşı
Bizlər olan,
Vətəndaşsız vətəndir o.

İç dünyamdan səslər gəlir:
Nə vaxtadək tamlığımız
Dünya adlı bütövlükdə
Kəsir qalsın?
Niyə mənim İrəvanım,
Zəngəzurum, Qarabağım,
Yad təpiklər orbitində
Əsir qalsın.

Haqsızlıqda hal qalanmır.
Bu Allahlı qoca dünya,
Niyə haqla halqalanmır?
Beş qitədə dalğalanan
Bayrağımız,
Axı niyə böyrümdəki
Beş addımlıq Xankəndimdə
Dalğalanmır?

Bizim ulu mənliyimiz
Hər yetənin ayağına
Döşənəcək həsir deyil.
Tamlığımız kəsirsə də,
Qeyrətimiz, namusumuz,
Mərdliyimiz kəsir deyil.
Qeyrət ki, var,
Nə papaqda, nə fəsdədir.
İlk arzumuz Qarabağdır,
O da hələ qəfəsdədir.
Bilsək onun azadlığı
Bizdəki son nəfəsdədir,
Elə bu gün qurban verrik
O nəfəsi.

Öz qeyrətli vətəndaşı
Olmayan bir vətən daşdır.
Hər övladı qeyrət yüklü
Vətən də bir vətəndaşdır.
Bu gün düşmən qarşısında
Daş sipərdir hər canlımız.
Bunun canlı şahididir,
Artıq ana Cünnütümüz,
Doğma Cocuq Mərcanlımız.

Yer üzünə sığa bilməz
Qarabağsız dərdim mənim,
Əgər Ali Baş Komandan
Əmr eləsə,
Onu dərddən qurtarmağa
Müntəzirdir,
50 milyon mərdim mənim.

Qırış-qırış qırışsa da
Hamarlarım,
İplik-iplik sökülsə də,
Damarlarım,
Bu vuruşdan dönəməm mən.
Bəs deyilmi zaman-zaman,
Biz qapılar ardındakı
Gözcüklərdən seyr elədik
O taydakı özümüzü.
Gərək olsa biz tankların ,
Biz topların
Dillərilə deyəcəyik,
Ən sonuncu sözümüzü.

Bir qolumuz Tufandağdır,
Bir qolumuz Əlincədir.
Qalxışımız baş zirvədən,
Qalx sədası gəlincədir.
Əldən gedən torpaqları,
İç dünyama qatmayınca,
Daşnak adlı zir-zibili
Süpürləyib,
Fərat çayın o tayına
Atmayınca,
Oğul deməz Vətən bizə.
Boğub bəm də həbs etməsək,
O riyakar zilləri biz,
Dilçəyindən qoparmasaq,
Ağdamıma -Akna deyən,
Dərəkəndə -Quqark deyən,
Laçınıma -Berdzor deyən,
Şuşamıza-Şuşi deyən
Dilləri biz,
Südün bizə haram olsun,
Haram, Vətən.
Öz qeyrətim öz içimdən
Güc almasa,
İrəvanda Göy Məsciddən
Öz dilimdə
Azan səsi ucalmasa,
Yaşamağa yoxdu haqqım.

Dünya haqla dolmayınca,
Ermənistan çevrilərək
Azəristan olmayınca,
Haqdan dönən deyilik biz.

Vallah belə zillət olmaz,
Qatilinə heykəl qoyan
Bir tayfadan millət olmaz.
Haray çəkir içim, çölüm,
Nijde ölüm kabusudur,
Heykəlləşə bilməz ölüm,
Niyə bilmir cahan bunu?
Çatmazlığa çatmalıyıq.
Biz o ölüm kabusunu
Tikə-tikə parçalayıb
Bu dünyadan o dünyaya
Atmalıyıq.

Bu gün bizim şah dilimiz,
Məğrur HUCUM deyimlidir.
Ölkə adlı bədənimiz,
Yalnız ƏSGƏR geyimlidir.
Düşmən üstə "Hucum Marşı"n,
İcimizin qəzəb, nifrət
Ladlarıyla hörürük biz.
Öz yurdunu anaların
Bətnindəkən tərk eləyən
On minlərlə çağaları
Bu gün əsgər libasında
Görürük biz.

Yer də, göy də qoy ahlansın.
Ürəyinə dağ çəkilmiş,
Dərdli hicran fırçasıyla,
Saçlarına ağ çəkilmiş,
Analar da silahlansın.
Hələ ailə binasına,
Daş qoymadan,
Sevdiyilə bir yastığa
Baş qoymadan,
Şəhid olmuş oğulların
İntiqamın almaq üçün.

Göz yaşları yanağında
Çağlar qalan,
Dərdli nişan üzükləri,
Barmağında ağlar qalan,
Eşq bağında barı şəhid,
Özü sağkən, yarı şəhid
Qızlar belə,
Geyib əskər libasını,
Cərgəmizə qatılsınlar,
Sıxıb mərmi yumruqları,
Döyüşlərə atılsınlar.

Yurdumuzun şimalı var,
Cənubu yox, qərbi yoxdur.
Açıb zindan qapıların
Azad edin məhbusları,
Suçlu, suçsuz fərqi yoxdur.
Qoy yandırsın gün ahları,
İçlərində dəfn eləyib
Öz ünvanlı günahları,
Qasırğa tək hey əssinlər.
Daşnakstan zindanında
Fəryad edən Şuşa adlı,
Laçın adlı, Ağdam adlı
O günahsız məhbusların
Xilasına tələssinlər.

Nifrətini, qəzəbini,
Öz içinə sıxıb getmiş,
1918-dən üzü bəri
Daşnakların tikə-tikə
Doğradığı
Bədənlərdən çıxıb getmiş,
Ruhları da haraylayın.
Qoy qəzəbdən
Çatım-çatım çatılsınlar.
Qoy yeddinci qatdan bizim,
Yeddi işğal bölgəmizə
Atılsınlar.
Ya qasırğa, ya fırtına libasında,
Bizim polad ordumuzun
Sırasına qatılsınlar,
O əbədi görünməzlər.
Cavabı yox niyələrin,
Nədənlərin,
Yer altına vaxtsız köçmüş,
Yüz minlərlə
Öz ünvanlı bədənlərin
İntiqamın almaq üçün.
Bitməyibdir sonlar axı.
Peyğəmbərim söyləmişkən,
"hazırlıqlı əskərlərdir"
Onlar axı.
Olmazlığı oldurmağa,
Biz Xankəndi, biz Kəlbəcər,
Şuşa boyda qədəhləri
Dadlı zəfər şərbətiylə
Doldurmağa
Getməliyik.

Ayaq qaçsın dizdən qabaq,
Dəli xəzrim qanadlanıb
Uçub getsin bizdən qabaq,
Daşnakların
Çirkli nəfəs tozlarını
Qarabağdan silmək üçün.
Çaylar belə haykıraraq,
Məcrasından çıxıb getsin,
Daş bəndləri yıxıb getsin
Hərbə tərəf,
Yurdumuzun yurd parçası,
Qərbə tərəf,
Murdar düşmən ləpirlərin
Yumaq üçün.

Özü boyda qızıl güldür
Qarabağım,
Onu gec-tez dərəcəyik.
Qurbətdəki muzeylərə
Az göndərin
Qarabağlı xalıları,
Biz onları zəfər günü,
İgidlərin keçdikləri
Yollar üstə sərəcəyik.

Əldən getmiş torpaqların
İlk tanrısal himiyik biz.
Döyüşlərdə şəhid olsaq,
Əbədilik yaşamağa
İmza atmış kimiyik biz.
Qoy şahidim zəfər günü
Cıdır düzdə rəqs edəcək
Dəli-dolu Xəzrim olsun.
Zeynal Vəfa adında bu,
Qoca ömrüm,
Qələbəyə ən birinci
Nəzrim olsun.

Özümüzü Qarabağa,
Zəngəzura, İrəvana
Əbədilik əkməyincə,
Hinaldağın zirvəsində
Qartal kimi səkməyincə,
Xankəndinin, Zəngəzurun
Xocalının nəfəsini
Acgözlüklə
İçimizə çəkməyincə,
Bu vuruşdan dönən deyil
Ordum mənim.
Tükədəmməz
Bilin hərbi, Azərbaycan.
Mənim ana bayrağıma
Bürününcə,
Bütün Qərbi Azərbaycan.

**Zeynal VƏFA**